Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Xeyirxahlıqla döyünən ürək

## (Portret cizgiləri)

**Həyatda elə şəxsiyyətlər var ki, onlar bir kökün, bir nəslin deyil, öz xeyirxah əməlləri, nəcib işləri ilə mənsub olduqları bir xalqın övladı olurlar. Onlardan biri də görkəmli dövlət və ictimai xadim, general - polkovnik Ramil Usubovdur. O, uzun illər Azərbaycan Respublikasının Daxili İşlər naziri vəzifəsində işləyib. Özünün cavabdehli işi ilə Azərbaycan dövlətinə, dövlətçiliyinə sadiq bir əsgər olub. İndi isə Azərbaycan Təhlükəsizlik Şurasının katibi vəzifəsində də böyük uğurla işləyir və müstəqilliyimizin qorunmasında bu vəzifədə də əlindən gələni edir. Yenə də dövlətə, dövlətçiliyə sadiqliyini sübut eləyir.**



Ramil Usubov Azərbaycan xalqının Umummilli lideri Heydər Əliyev məktəbinin ən layiqli, etibarlı yetirmələrindəndir. O, çətin gündə, dar ayaqda, müstəqilliyimizə qarşı qara qüvvələrin basqı etdiyi zamanda həmişə xalqının yanında olub, lazım gəldikdə xalqının yükünü öz çiynində daşıyıb.

1990-cı ilin qara, qanlı 20 yanvar hadisələrində, ermənilər açıq - aydın dəstəkləyən, Azərbaycan torpaqları hesabına Ermənistanı genişləndirən Sovet rəhbərliyinin birtərəfli mövqeyinə qarşı mübarizədə də biz bunun şahidi olmuşuq. Güclü təəssübkeşliyi və hədsiz Vətən sevgisiylə yadda qalan Ramil müəllim üçün həyatından da əziz, başı müsübətlər çəkən doğma xalqı idi.

Doğma yurdu olan Xocalının erməni-rus faşistləri tərəfindən başına gətirilən, XX əsrdə analoqu olmayan faciə onu çox ağır, dəhşətli dərəcədə sarsıtmışdı. Ramil müəllim hər dəfə o dəhşətləri yada salanda çox sarsılır, kövrəlir və böyük sarsıntılar keçirir. Axı o, orada qətlə yetirilən insanlarımızın çoxunu tanıyırdı. Çoxu da onun öz qohumları, yaxınları idi...

Ramil Usubovun bir şəxsiyyət kimi böyüklüyü hər şeydən öncə onun müstəqil Azərbaycan döbvlətinə, dövlətçiliyinə sədaqətində ölkəmizin tərəqqisinə, çiçəklənməsinə yönəldilən dövlət fəaliyyətində, ictimai sabitliyin qorunmasında, əsrlərdən bu günə qədər gələn mənəvi dəyərlərin mühafizəsində özünü biruzə verir. Uzun illər rəhbərlik etdiyi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi fikrimizi tam təsdiqləyir. Bu çətin, lakin şərəfli vəzifədə də öz sadəliyi, xeyirxahlığı, təvazökarlığı ilə fərqlənirdi Ramil müəllim.

**Ramil Usubovla bağlı ictimai rəy sorğusuna əsasən deyə bilərəm ki, iş otağının qapısı həmişə xalqın üzünə açıq olub. Rayonlarda tez-tez keçirdiyi görüşlərdə də özünəməxsusluq vardı. Qəbuluna gələnlərin problemlərini ya yerindəcə həll edir, ya da problemin həlli üçün müvafiq tağşırıqlar verirdi. Bir sözlə hamı ondan xoş təəssüratla ayrılırdı. Eyni zamanda nazir kimi ünvanına göndərilən məktublar da cavabsız qalmırdı. Bu məktublar da müsbət həll olunurdu.**

Ümumiyyətlə Ramil müəllim müxtəlif məsul vəzifələrdə çalışsa da, onun üçün humanistlik, xeyirxahlıq, haqq-ədalətin bərpası həmişə önəmli olub. Elə buna görə də o, vətəndaşların məktublarına, onlarla keçirilən görüşlərə xüsusi diqqət yetirirdi. Çünki bilirdi ki, hər məktubun, hər şikayətin arxasında bir insan taleyi durur.

Ramil Usubovun iş üslubu səmərəli dövlət fəaliyyəti xalqa, dövlətə, ən başlıcası Ulu Öndərin ölməz ideyalarından, habelə onun ləyaqətli varisi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daxili və xarici siyasətinə dəstəyindən qaynaqlanır. O, bu dahi insanlara həmişə sadiq olub.

Dekabrın 22-də Ramil Usubovun ad günüdür. O, 1948-ci ildə yaralı yerimiz olan Xocalıda anadan olub. O, Xocalının tam azad olunacağı günü böyük səbirsizliklə gözləyir. Bu sahədə Ali Baş Komandanla birlikdə lazım olan iş aparır. Hazırda Ramil müəllim də Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik bacarığı və Azərbaycan ordusunun qəhrəmanlığı sayəsində qazanılan böyük Zəfər sevinci ilə yaşayır. Onun 72 yaşı məhz qələbənin doğurduğu sevincli, xoş əhval-ruhiyyəli günlərə təsadüf edib. Həmin qələbədən, Zəfər günüdən artıq iki il keçib. General Ramil Usubov da artıq ömürünün 74-cü baharını dekabr ayının 22-də qeyd edəcək.

Mən böyük ürək sahibi Ramil Üsubovu qarşıdan gələn ad günü münasibətilə təbrik edir, ona 100 il yaşamağı arzulayıram. Hörmətli general. Təbəssüm üzünüzdən, insanlıq qəlbinizdən əksik olmasın . Tezliklə sizin doğma yurdunuz, xalqımızın səbirsizliklə gözlədiyi Xocalının erməni gavurlarından təmizləndiyi günü və orada üçrəngli bayrağımızın asıldığı günü görək. Bu sevinc heç də uzaqda deyil. Mən buna varlığım qədər inanıram.

**Cənab general Ramil müəllimə həsr etdiyim "Qürur ünvanı" adlı şeirimi də məqaləmə əlavə edirəm:**

Vətənçün ən ağır, ən çətin gündə,
Qorudun dövlətə sədaqətini.
Candan çox sevdiyin xalqın önündə,
Göstərdin polad tək dəyanətini.

Sadiq yolçususan Ulu Öndərin,
Sözün əməlinlə taraz olubdu.
Tanrıdan gəlibdi sənin dəyərin,
Sənin tək oğullar çox az olubdu.

Sayıldın, seçildin hər vəzifədə,
Qeyrətlə yoğrulub sənin varlığın.
Elə şəxsiyyətsən sadədən sadə,
Dastana çevrilib xeyirxahlığın.

Qarabağla gəlir nurlu gələcək,
Bir sevgi çağlayır ürəkdə, canda.
Böyük vətəndaş tək, sadiq övlad tək,
Qürur ünvanısan Azərbaycanda.

**Kaşki bütün dövlət işçiləri, məmurları öz işinin öhdəsinnən məhz general-polkovnik Ramil Usubov kimi layiqincə gələydi. Onda yaşamaq da, yaratmaq da gözəl olardı. İnsanlarımızın da dövlətə, dövlətçiliyə inamı daha çox olardı.**



**Leyla ABBASOVA,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**